**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin 2022-ci il üzrə fəaliyyətinə dair hesabatı**

2022-ci il ərzində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (bundan sonra – Xidmət) tərəfindən aşağıdakı istiqamətlər üzrə müvafiq tədbirlər həyata keçirilmişdir:

❖ **Əmək hüquqları ilə bağlı daxil olmuş müraciətlərin araşdırılması üzrə**

Xidmət tərəfindən 2022-ci il ərzində "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq vətəndaşlardan daxil olmuş **13 476** şikayət məzmunlu ərizə, eləcə də müxtəlif müəssisə, idarə və təşkilatlar tərəfindən göndərilmiş **7 130** sorğu və məktub araşdırılaraq cavablandırılmışdır.

Xidmətdə ötən il ərzində II Qarabağ müharibəsi iştirakçıları, Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər tərəfindən daxil olmuş **231** müraciətdən **227** ədədi icra edilmiş, **4** ədədi barədə aidiyyəti müəssisələrə məktublar göndərilmişdir.

Xidmət tərəfindən görülmüş tədbirlərin nəticəsi olaraq vətəndaşlara gecikdirilmiş və ödənilməli olan **628 326,18** manat məbləğində vəsaitin ödənilməsi təmin edilmişdir.

Ümumi ödənişlərdən:
**94,6**%-i (**594 763,13** manat)- əmək haqqı;
**0,8** %-i (**4912** manat)- zərərə görə ödənc;
**4,6**%-i (**28 651,05** manat)-sosial müavinətlər və kompensasiyadan ibarət olmuşdur.

Hesabat dövründə əmək müqavilələrinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verilmiş **104** nəfər öz əvvəlki işinə bərpa edilmiş, bu işçilər barəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması təmin edilmişdir. Eyni zamanda işçilərin əmək hüquqlarının bərpası ilə əlaqədar **634** işəgötürənə icrası məcburi olan göstəriş verilmişdir.

Hesabat dövrü ərzində Xidmətin vəzifəli və rəhbər şəxsləri tərəfindən **10403** vətəndaş qəbul edilmişdir.

❖ **Uşaq əməyi və məcburi əməyin qarşısının alınması üzrə**

2022-ci il ərzində hüquq mühafizə orqanları tərəfindən Xidmətə daxil olmuş materiallar əsasında işəgötürənlər tərəfindən **5** halda **15** yaşına çatmamış şəxsin işə cəlb edilməsi faktı aşkar edilmiş və bu faktlarla əlaqədar işəgötürənlərin vəzifəli şəxslərinə Azərbaycan

Respublikasının İnzibati Xətalar Məcəlləsinin 192.8-ci maddəsinə əsasən **5300** manat məbləğində inzibati cərimə tətbiq olunmuşdur.

### ❖ Bədbəxt hadisələrin araşdırılması və əməyin mühafizəsi sahəsində işlər üzrə

Bədbəxt hadisələrlə bağlı daxil olan məlumatların vahid platformada toplanması, təhqiqat materiallarının aidiyyəti orqanlar tərəfindən elektron şəkildə əldə edilməsi imkanının yaradılması, baş vermiş bədbəxt hadisələrin müəyyən edilmiş göstəricilər üzrə təhlillərinin aparılmasının təmin edilməsi məqsədilə "İstehsalatda baş vermiş bədbəxt hadisələrin araşdırılmasının (təhqiqatın) aparılması elektron informasiya ehtiyatları"nın yaradılması ilə bağlı işlər aparılmışdır.

Ölkəmizdə əməyin mühafizəsi sahəsində müasir tələblərə cavab verən milli standartların hazırlanması istiqamətində işlər davam etdirilmişdir. Məqsəd qabaqcıl dünya təcrübəsi əsasında iş yerlərində əməyin maksimal təhlükəsizliyinin qorunmasını, peşə risklərinin idarə olunmasını təmin edən preventiv tədbirlər sisteminin formalaşdırılmasıdır. Əməyin mühafizəsi ilə bağlı milli standartların hazırlanması üçün Xidmətdə "Əməyin təhlükəsizliyi" standartlaşdırma üzrə Texniki Komitə (AZSTAND/TK 21) yaradılmışdır. Komitə tərəfindən əməyin mühafizəsi üzrə beynəlxalq standart olan İSO 45001 əsasında 196 milli standartın hazırlanmasına başlanılıb, artıq ilk standart yaradılaraq təsdiqlənib.

Xidmətin tabeliyində "Əməyin Mühafizəsi Mərkəzi" publik hüquqi şəxsin yaradılması istiqamətində işlər görülmüşdür. Mərkəz tərəfindən əmək hüquqları, əməyin mühafizəsi və əməyin təhlükəsizliyi sahəsində məsləhət xidmətlərinin göstərilməsi nəzərdə tutulur. Təlimlər, standart norma və qaydaların müəssisələrdə tətbiqi, sertifikasiya və inspeksiya nəzarətinin keçirilməsi, fərdi və kollektiv mühafizə vasitələrinin sertifikatlaşması, iş yerlərinin attestasiyası kimi xidmətlər də Mərkəzin fəaliyyət dairəsinə aid olacaq. "Əməyin Mühafizəsi Mərkəzi" xidmət çeşidlərinin artırılmasına və xidmətlərin təkmilləşdirilməsinə şərait yaradacaqdır. Beynəlxalq Əmək Təşkilatının da rəyi alınmaqla Mərkəzin Nizamnaməsinin layihəsi hazırlanmış, aidiyyəti qurumlarla razılaşdırılaraq Mərkəzin yaradılması ilə bağlı yekun sənədlər Azərbaycan Respublikası Prezident Administrasiyasına göndərilmişdir.

### ❖ "Əmək və Məşğulluq" altsistemindən istifadənin təkmilləşdirilməsi üzrə

2022-ci ilin may ayında "Əmək və Məşğulluq" altsistemi (ƏMAS) istifadəyə verilmişdir. ƏMAS bütün işəgötürənlər və işçilər üçün vahid əmək münasibətləri platformasıdır. Sistem vasitəsilə əmək müqavilələrinin kağız üzərində deyil, elektron qaydada bağlanılması, elektron kadr uçotuna keçid, əmək münasibətləri zamanı kağız üzərində aparılan digər əməliyyatların rəqəmsal müstəviyə keçirilməsi nəzərdə tutulur. Eyni zamanda növbəti hədəflər əməyin təşkili və mühafizəsində beynəlxalq standartların tətbiqi, əməyin mühafizəsi və texniki təhlükəsizliklə bağlı işçilərin təlimatlandırılması və qeydiyyatı, onların bu sahədə biliklərinin yoxlanılması barədə məlumatların altsistemdə əks edilməsi, həmçinin istehsalatda baş verən bədbəxt hadisələrin reyestrinin formalaşdırılması, əməyin təşkili və müafizəsi sahəsində tədqiqat işlərinin aparılması,

habelə yoxlamaların həyata keçirilməsi məqsədi ilə altsistemin tərkibində risk əsaslı yoxlama, elektron audit və elektron cərimə modullarının yaradılmasıdır.

ƏMAS-ın funksionallığın artırılması üzrə təkliflər paketi hazırlanaraq Nazirliyin tabeliyində "DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi" MMC-yə (bundan sonra – DOST RİM) təqdim edilmişdir. Təkliflərin bir qismi ötən müddət ərzində icra edilmiş, digər qismi üzrə tədbirlər davam etdirilməkdədir.

Elektron auditin təşkili üzrə yol xəritəsi, pasport və proses axınlarının layihələri, elektron protokol və qərarın nümunəvi forması, blok-sxemlər işlənərək DOST RİM-ə təqdim edilmiş və işlər icra mərhələsindədir.

2022-ci il ərzində işəgötürənlər tərəfindən işçilərin "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Resbublikasının Qanununun və "Minimum aylıq əmək əmək haqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının təmin edilməsi üçün Xidmət tərəfindən işəgötürənlərə ƏMAS-da xəbərdarlıqların yerləşdirilməsi, sms bildirişlərin, məktubların göndərilməsi, onlarla görüşlərin keçirilməsi kimi tədbirlər görülmüşdür.

Müvafiq altsistemdə ölkə üzrə minimum əmək haqqı məbləğindən aşağı məbləğ daxil edilmiş əmək müqaviləsi bildirişləri üzrə düzəlişlərin daxil edilməsi məqsədilə görülmüş tədbirlərin nəticəsi olaraq 2021-ci ilin dekabr ayında qeydə alınmış maksimal göstəricilər ilə müqayisədə 2022-ci il ərzində pozuntu mövcud olan ümumi bildiriş sayı üzrə **40 645** işəgötürən tərəfindən **378 008** bildirişə düzəliş edilərək bildirişlər üzrə **91,06**% azalma əldə edilmişdir.

Ölkədə aparılan islahatların, o cümlədən tərəfimizdən görülən inzibati və preventiv tədbirlərin nəticəsi olaraq ƏMAS altstemində əmək müqavilələrinin sayı ilin əvvəlinə münasibətdə **61 220** müqavilə və ya **3,63** % artaraq **1 746 014** müqavilə, əmək haqqı fondu isə **21,01** % artaraq **1 159 951 862** manat təşkil etmişdir.

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi "Əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti üzrə risk qruplarının müəyyənləşdirilməsi meyarları" layihəsi işlənib hazırlanmışdır. Risk əsaslı qiymətləndirmə modeli 26 meyarı özündə əks etdirir və modelin tam rəqəmsallaşması həyata keçirilmişdir. Risk model yoxlama subyektlərinin planlaşdırmasına və tam şəffaf seçilməsinə şərait yaradacaqdır.

Eyni zamanda ötən il elektron əmək müqavilələrinə keçidlə bağlı Nazirlik və onun qurumlarında pilot layihənin tətbiqinə start verilmişdir.

### ❖ Qanunvericiliyin təkmilləşdirilməsi üzrə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İşçilərin əmək kitabçasının forması və onun tərtibi qaydalarının təsdiq edilməsi barədə" 1996-cı il 26 dekabr tarixli 186 nömrəli və "Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə və Azərbaycan Respublikasının Vergilər Nazirliyinə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar"ın

təsdiq edilməsi haqqında" 2014-cü il 6 iyun tarixli 183 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 11 oktyabr tarixli 389 nömrəli Qərarı qəbul edilmişdir.

Xidmət tərəfindən əmək qanunvericiliyinə nəzarətin daha səmərəli həyata keçirilməsi, işəgötürənlər tərəfindən maliyyə itkilərinə məruz qalmadan inzibati xəta pozuntularının aradan qaldırılması, hüquqları pozulmuş işçilərin hüquqlarının bərpa olunması məqsədilə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 38.1, 116.1,192.4, 192.13, 198.1.5, 469.2 və 539-cü maddəsinə dəyişiklik edilməsi ilə bağlı layihə hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir.

Əmək münasibətlərinin leqallaşdırılması, dəstəklənməsi və stimullaşdırılması, qeyri-formal məşğulluğun qarşısının alınması sahəsində işəgötürənlərin məsuliyyətinin artırılması, normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində qeyri-formal məşğulluq (192.1) anlayışının genişləndirilməsi və inzibati məsuliyyəti aradan qaldıran qeydin Məcəlləyə əlavə edilməsi ilə bağlı dəyişiklik layihəsi hazırlanmışdır.

- **İctimaiyyətlə əlaqələr və maarifləndirici tədbirlər üzrə**

2022-ci il ərzində Xidmətin təsdiq edilmiş iş planına uyğun olaraq əmək hüquqları sahəsində işəgötürənlərin maarifləndirilməsi məqsədilə Bakı şəhər İdarəsi və regional şöbələri tərəfindən **50** maarifləndirici onlayn tədbir keçirilmişdir. Maarifləndirici tədbirlərdə **4000**-dək işəgötürən və onların nümayəndələrinin iştirakı təmin edilmişdir. Xidmətdə təşkil olunmuş bütün tədbirlərlə bağlı press-reliz hazırlanaraq sosial şəbəkələrdə yayımlanmışdır.

Xidmətdə vətəndaş (işəgötürən, işçi) sorğularının cavablandırılmasına dəstək olmaq, əmək qanunvericiliyinin tələbləri barədə ictimaiyyəti maarifləndirmək məqsədilə cari ilin 3-cü rübündən etibarən "Onlayn Müfəttiş" layihəsi fəaliyyətə başlamışdır. Sözügedən layihə çərçivəsində sosial şəbəkələr vasitəsilə vətəndaşlardan daxil olan sorğular əsasında Xidmətin əməkdaşları tərəfindən videoformatda cavablandırılan suallar Xidmətin sosial şəbəkə hesabları vasitəsilə ictimaiyyətə çatdırılmışdır. Layihə çərçivəsində **8** belə video çarx təqdim edilmişdir. Hesabat dövrü ərzində Xidmət əməkdaşlarının **82** televizor və radio çıxışları təşkil edilmişdir.

Dövr ərzində Xidmət tərəfindən Azərbaycan Respulikasının İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) elan etdiyi "Uşaq Hüquqları Aylığı" çərçivəsində (2022-ci il 20 oktyabr - 20 noyabr) Bakıda **3** ümumtəhsil müəsissəsində **150** nəfərdən çox şagird üçün uşaqların əmək hüquqları mövzusunda təlimlər keçirilmiş, görüşün sonunda təlimlərdən əldə etdikləri biliklərinə və aktiv iştiraklarına görə fərqlənən şagirdlər mükafatlandırılmış, onların əməyin təhlükəsizliyi və mühafizəsi qaydaları ilə yerində tanışlıq məqsədilə Azərbaycan Dəmir Yolları QSC-yə info-turu təşkil olunmuşdur.

Eyni zamanda Xidmət ilə Elm və Təhsil Nazirliyinin "Məktəblinin dostu" layihəsi çərçivəsində il ərzində ümumilikdə **40** ümumtəhsil müəssisəsində **1600** şagirdə "Uşaqların əmək

hüququ" mövzusunda əyani təlimlər keçirilmiş, təlim iştirakçılarına mövzu ilə əlaqədar müvafiq maarifləndirici kitabçalar (bukletlər) paylanmışdır.

2022-ci il ərzində Xidmətin fəaliyyət istiqamətləri üzrə görülmüş işlərə və aparılan islahatlara dair **123** press-reliz hazırlanmış, sosial şəbəkələrdə **869** (**474** poster, **61** infoqrafika, **186** videosujet, **148** link, mətn və digər formatlı) paylaşım edilmişdir.

Sosial şəbəkələrdə izləyicilərin sayı Facebook üzrə **11 000**, İnstagram üzrə **4416**, Youtube üzrə **320**, Linkedin üzrə **3120**, Telegram üzrə **334** nəfər təşkil etmişdir.

2022-ci il ərzində **49** jurnalist sorğusu və Xidmətin rəsmi sosial media hesablarına (Facebook, İnstagram, WhatsApp) daxil olmuş **4000**-ə yaxın vətəndaş müraciəti araşdırılaraq cavablandırılmışdır.

- ❖ **Korrupsiyanın qarşısının alınması və kadr potensialının inkişafı üzrə**

2022-ci ilin yanvar ayında Xidmətdə "İSO 37001" standartının (anti-korrupsiya siyasəti və korrupsiyaya qarşı mübarizə idarəetmə sistemi) tətbiqi üzrə tədbirlər görülmüş və müvafiq sertifikat əldə edilmişdir.

Xidmətin Aparatında İSO 37001 beynəlxalq standartının tələblərinə uyğun olaraq Daxili nəzarət şöbəsi tərəfindən Aparatın şöbələrində daxili audit yoxlaması həyata keçirilmişdir.

İşə qəbul olunan yeni əməkdaşlara Xidmət tərəfindən "İSO 37001" beynəlxalq standartı ilə bağlı  təlimlər keçirilmişdir.

25.11.2022-ci il tarixində sertifikatın yenilənməsi ilə bağlı Xidmətdə xarici auditor tərəfindən audit yoxlaması keçirilmiş və uğurla nəticələnmişdir.

Eyni zamanda Xidmətin Aparatı, Bakı şəhər İdarəsi və regional şöbələrində çalışan müfəttiş və hüquqşünaslarən peşə biliklərinin artırılması üçün "Əmək qanunvericiliyinin tətbiqi", "Əməyin mühafizəsi", "Əmək və Məşğulluq Alt Sistemi" və "İnzibati Xətalar Məcəlləsinin tətbiqi" mövzularında ümumilikdə **80** nəfər əməkdaşın iştirakı ilə daxili funksional təlimlər keçirilmişdir.

Dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə Xidmətin **3** əməkdaşı "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmuşlar.

- ❖ **Beynəlxalq və yerli təşkilatlatlarla əməkdaşlıq üzrə**

Türkiyə Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında imzalanmış 10-cu Birgə Daimi Komissiyanın Tədbirlər Planının 12-ci bəndinə uyğun olaraq cari ilin 31 avqust tarixində Türkiyə Respublikasının Əməyin Mühafizəsi və Təhlükəsizliyi Baş İdarəsi (İSGGM) ilə Xidmət arasında onlayn formatda "Əməyin mühafizə mərkəzinin yaradılması istiqamətində məlumat və təcrübə mübadiləsi" mövzusunda görüş keçirilmişdir.

20 iyun 2022-ci ildə Beynəlxalq Əmək Təşkilatın Qərbi Avropa və Mərkəzi Asiya ölkələri üzrə Layiqli əməyin texniki dəstək komandasının üzvü Antonio Santos ilə Xidmətin əməkdaşları arasında görüş keçirilmişdir.

20 oktyabr 2022-ci ildə Xidmətdə Moldova Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyinin dövlət katibi xanım Corina Ajder ilə görüş olmuşdur. Görüşdə əmək qanunvericiliyinə əməl olunmasına nəzarət və risk modeli üzrə maraq doğuran məsələlərlə bağlı qarşılıqlı təcrübə mübadiləsi aparılmışdır.

20 oktyabr 2022-ci ildə "Caspian Energy Club"un növbəti B2G Forumu çərçivəsində "İşəgötürənlərlə fəal dialoq" mövzusunda Xidmət rəisinin iştirakı ilə tədbir keçirilmişdir.

3 noyabr 2022-ci ildə Rumıniyanın əmək və sosial həmrəylik naziri Marius-Konstantin Budeyə Xidmətin fəaliyəti, əməyin ödənilməsi və yoxlama prosesinin təşkili barədə təqdimatlar edilmişdir.

17-18 noyabr 2022-ci il tarixlərində İspaniya Krallığının Valensiya şəhərində Beynəlxalq Əmək Təşkilatı və İspaniyanın Əmək və Sosial İqtisadiyyat Nazirliyi tərəfindən keçirilən Əmək Müfəttişliyi üzrə Beynəlxalq Forumda Xidmətin əməkdaşları iştirak etmişdir.

24 noyabr 2022-ci ildə Xidmət ilə Portuqaliya Əmək Müfəttişliyi arasında əmək münasibətləri sahəsində əlaqələrin inkişaf etdirilməsi, təcrübələrin bölüşülməsi məqsədilə görüş keçirilmişdir.

2 dekabr 2022-ci il tarixində Xidmət ilə AmCham İnsan resursları və Əmək komitəsinin görüşü keçirilmişdir. Görüş zamanı əmək münasibətlərində uyğunluq və qanunvericilik sahəsində həyata keçirilmiş islahat və yeniliklər barədə iştirakçılara məlumat verilmişdir.

14 dekabr 2022-ci ildə uşaq əməyinin ən kəskin (pis) formalarının qarşısının alınması sahəsində ABŞ səfirliyinin İqtisadi əməkdaşlıq şöbəsinin əməkdaşları ilə görüş keçirilmişdir.

15 dekabr 2022-ci il tarixində "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti ilə Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında" və "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında Rusiya Federasiyası ərazisində işləyən Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikası ərazisində işləyən Rusiya Federasiyası vətəndaşlarının müvəqqəti əmək fəaliyyəti və hüquqlarının müdafiəsi haqqında" Saziş layihələrinin müzakirəsi üzrə Rusiya Federasiyası Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqarsiya Xidməti, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələri arasında görüş keçirilmişdir. Xidmətin rəis müavini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndə heyətində Xidməti təmsil etmişdir.

20-21 dekabr 2022-ci tarixlərində Xidmətin əməkdaşları "İşəgötürənlə işçi arasında əmək münasibətləri üzrə Azərbaycan və Türkiyə qanunvericiliklərinin tədqiqi və müqayisəsi" mövzusunda Türkiyə Respublikasında keçirilən tədbirdə iştirak etmişdir. Tədbirdə Azərbaycan və Türkiyənin ekspert komitələri tərəfindən işəgötürənlə işçi arasında əmək münasibətləri ilə bağlı ölkələrin qanunvericiliklərinin araşdırılaraq məlumat mübadiləsinin aparılması və qanunvericiliklərdəki fərqlərin qiymətləndirilməsi məsələləri müzakirə olunmuşdur.

20-21 dekabr 2022-ci il tarixlərində Xidmət ilə "Azercell Telekom" MMC-nin nümayəndələri arasında "Əməyin mühafizəsi və texniki təhlükəsizlik" mövzusunda görüş keçirilmişdir. Görüşdə Azərbaycan Respublikasında əməyin mühafizəsinin qanunvericilik əsasları, bu sahədə qəbul edilmiş normativ-hüquqi aktlar, İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota

alınması qaydaları, Əməyin mühafizəsinin əsas prinsipləri, Əməyin mühafizəsi sahəsində mülkiyyətçinin, işəgötürənin və işçilərin vəzifələri, əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydaları üzrə təlimatların keçirilməsi, İşçilərin biliklərinin yoxlanılması, Protokol və digər sənədlərin forması və doldurulması, əmək və icra intizamının təmin edilməsinə dair geniş məlumat verilmişdir.

19, 20, 23, 25 may 2022-ci il tarixlərində Xidmət “Azərsun Holding”, “Xalq Bank”, “Azərbaycan Hava Yolları”, “Veysəloğlu” Şirkətlər Qrupu ilə birgə ƏMAS-ın tətbiqinə dair qarşılıqlı görüşlər keçirilmişdir.

27 dekabr 2022-ci ildə Banklar Assosiasiası (ABA) ilə birlikdə “Əmək və Məşğulluq” altsisteminin funksionallığı, yenilikləri və işəgötürənlərin üzləşdiyi çətinliklərin həlli yolları” mövzusunda bank əməkdaşları üçün təlim keçirilmişdir.

Yuxarıda qeyd edilənlərlə yanaşı növbəti üç il ərzində Xidmətin qarşısında dayanan əsas strateji məqsdə və hədəflərə daha sistemli və effektiv şəkildə nail olunması məqsədilə **“Dövlət Əmək Müfəttişliyi Xidmətinin 2023-2025-ci illər üzrə Strateji Planı”** hazırlanmışdır.